A Z Ə R B A Y C A N R E S P U B L İ K A S I

BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ

# S Ə R Ə N C A M I

№ 66 "14" Mart 2016-cı il

**Novruz bayramının qeyd edilməsi haqqında**

Xalqımızın ən qədim və əziz bayramı Novruz yurdumuza qədəm qoyur. Novruz xalqımızın mədəniyyətini, milli mənəvi dəyərlərini özündə əks etdirən, dünyaya tanıtdıran qədim el bayramıdır. Xalqımızın yüksək zövqü və bədii təfəkkürü bu xalq bayramının el şənliklərində və rəngarəng əyləncələrində özünü aşkarlayır, onun mənəvi dünyasının təzahürünə, aynasına çevrilir.

Əcdadlarımızdan bizə yadigar qalan, milli ruhumuzu və yaddaşımızı bütün zənginliyi ilə özündə əks etdirən Novruz bayramının qeyd edilməsi məqsədilə Bakı Şəhər İcra Hakimiyyətinin Başçısının 03.03.2016-cı il tarixli, 91 saylı Sərəncamını və "Yerli İcra Hakimiyyətləri haqqında" Əsasnamənin 4.1.22-ci bəndini rəhbər tutaraq

**Q ə r a r a a l ı r a m:**

1. Binəqədi rayonu ərazisində Novruz şənliyinin keçirilməsi 18 mart 2016-cı il tarixə müəyyən edilsin.

2. Novruz bayramının qeyd edilməsi ilə bağlı Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).

3. Rayonun ictimai-siyasi həyatında xidmətləri olan şəxslər fəxri fərmanla təltif edilsin (siyahı əlavə olunur).

4. Binəqədi rayonunda Novruz bayramının qeyd edilməsi məqsədilə Təşkilat Komitəsi yaradılsın və aşağıdakı tərkibdə təsdiq edilsin:

**Təşkilat Komitəsinin sədri:**

| | |
|---|---|
| Vüsar İsmayılov | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini |

**Təşkilat Komitəsinin üzvləri:**

| | |
|---|---|
| Ramiz Göyüşov | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri |
| Elman Dadaşov | İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri |
| Yunis Hüseynov | Hüquq şöbəsinin müdiri |
| Yəhya Əliyev | Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri |
| Elşad Rəhimov | Rayon təsərrüfatı şöbəsinin müdiri vəzifəsi səlahiyyətlərini müvəqqəti icra edən, baş məsləhətçi |
| Elnur İmanov | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri |
| Qüdsi Bayramov | Rayon Gənclər və İdman İdarəsinin rəisi |
| Sevinc Abdullayeva | YAP Binəqədi Rayon Təşkilatının Aparat rəhbəri |
| İftixar Piriyev | "İrəvan" Dövlət Azərbaycan Dram Teatrının direktoru |
| Azər Məmmədov | Rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyinin rəisi |
| Oktay Süleymanlı | Rayon Polis İdarəsinin rəis müavini |
| Kamil Şərbətov | Binəqədi Rayon Dövlət Yanğından Mühafizə Hissəsinin rəisi |
| İlqar Mahmudov | Bakı Humanitar Kollecin direktoru |
| Hümbət Hüseynov | M.Ə.Rəsulzadə bələdiyyəsinin sədri, Azərbaycan Respublikası Qəsəbə Bələdiyyələri Milli Assossiyasiyasının sədri |
| Mübariz Məmmədov | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının M.Ə.Rəsulzadə qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi |

5. Təşkilat Komitəsinə və aidiyyəti qurum rəhbərlərinə tapşırılsın ki, Tədbirlər Planında nəzərdə tutulmuş işlərin yüksək səviyyədə yerinə yetirilməsini təmin etsinlər və bu məqsədlə Rayon İcra Hakimiyyəti başçısı Aparatının şöbə müdirləri və əməkdaşları arasında vəzifə bölgüsü apararaq mənə təqdim etsinlər.

6. Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Xaləddin İsgəndərov**

№ 76

**ƏSLİ İLƏ DÜZDÜR:**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Elnur İmanov**

SƏNƏDLƏR ÜÇÜN